

# İlyas TAPDIQ - 90

# BU, İLYAS TAPDIQDIR...

*Vaqif YUSİFLİ*

Ədəbi mühitə, söz aləminə gələn gündən İlyas Tapdığın adını eşitmiş, şeirlərini oxumuşdum. Sonra özüylə tanış olmuş, poeziya gecələrində, «Natəvan» klubunda keçirilən tədbirlərdə çıxışlarını dinləmişdim.

Bir vaxtlar Azərbaycan televiziyasında xalq ədəbiyyatı, aşıq poeziyası ilə bağlı verilişlərinə də maraqla qulaq asmışdım. Ona görə «maraqla» deyirəm ki, İlyas Tapdıq ədəbiyyata saz-söz mühitindən gəlib. Elə şeirlərində də o saz səsini, o səsin həzinliyini, duruluğunu hiss etmişəm.

İlyas Tapdıq ədəbiyyata əllinci illərdə gəlib və səhv etmirəmsə, ilk şeiri-«Bakının gecəsi» 1953-cü ildə, «Azərbaycan» jurnalında dərc edilib. Deməli, elə bir vaxtda ədəbiyyata gəlib ki, poeziya meydanında Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Əhməd Cəmil kimi ustadlar vardı, qırxıncı illərdə yaradıcılığa başlayıb əllinci illərdə artıq bir şair kimi tanınmağa başlayan Bəxtiyar Vahabzadə, Qabil, Hüseyn Arif, Nəbi Xəzri, Əliağa Kürçaylı kimi cavan, istedadlı şairlərin də varlığını unutmaq olmazdı. Belə bir dövrdə tələbə-şair İlyas Tapdıq öz şair fərdiyyətini ortaya qoymalı, tanınmalıydı. O illərdə şeir meydanı indiki kimi belə gur, sıx deyildi. O zaman ustadlara, poeziya korifeylərinə hörmə, məhəbbət və sədaqət vardı, Səməd Vurğunun, Süleyman Rüstəmin, Rəsul Rzanın bircə xoş sözü o şairin taleyinə az qala hökm kimi yazılırdı. İlyas müəllim əllinci illərdə təhsil aldığı APİ-nin dil və ədəbiyyat fakültəsində keçirilən şeir gecələrini, o gecələrdə S.Vurğunun, M.Hüseynin, S.Rüstəmin, M.İbrahimovun çıxışlarını, cavan şairlərə ustad tövsiyyələrini ömrünün ən gözəl xatirələri kimi indi də anır. Və o illərdəki canlı, sırf ədəbiyyat, sənət mübahisələri üzərində qurulan ədəbi diskussiyaları da unutmur...

İllər keçəcək... İlyas Tapdıq ədəbiyyatda, poeziyada yeni bir ab-havanın yarandığı 60-70-ci illərin, yeni sənət meyarlarının formalaşdığı 80-90-cı illərin canlı, heç zaman unudulmaycaq ədəbi hadisələrinin şahidi olacaq, müstəqillik dövrünün poeziyaya, şairin duyğu və düşüncələrinə, mənəvi aləminə necə təsir etdiyini elə yaradıcılığında hiss edəcək... Onun bu illər ərzində rus dilində də ona yaxın şeir kitabı nəşr ediləcək, tərcümə kitabları da işıq üzü görəcək. Uzun illər (1957-1992) nəşriyyatlarda çalışacaq (redaktor, böyük redaktor, baş redaktor), özünün dediyinə görə müxtəlif müəlliflərin dörd mindən artıq kitabnı redakte edəcək, çapa hazırlayacaq, istedadlı gənc şairlərə qayğısını əsirgəməyəcək, bəzilərinin «xatalı» şeirlərini QLAVLİT senzurasının «olmaz!» maneəsindən xilas edəcək... bir müddət Türkiyədə də işləyib-yaşayıb... Beləliklə, yaşa dola-dola gəlib yeni əsri də adlayacaq, AĞSAQQAL ŞAİR kimi tanınacaq.

İlyas Tapdığın poeziyası son əlli-altmış ilin Azərbaycan şeirinin keçdiyi yolun mənzərəsi barədə müəyyən təsəvvür yaradır. Təkcə uğurları ilə deyil, hətta çətinlikləri ilə birgə. Və bu mənzərədə İlyas Tapdığın da öz yeri görünür. Onun bu 58 illik yaradıcılığını bütünlüyülə oxuculara tanıtmaq niyyətində deyilik, amma oxuculara üzünü tutub yazdığı bir şeirinə müraciət etsək, daha yaxşı olar:

Şeirimdə Vətənin, torpağın adı,
Qəlbim də axırda bu torpağındı.
Mənə öz oğlundan, qızından artıq,
Bu doğma torpağı sevən yaxındı.

Halal zəhmətimdən heç vaxt bezmədim,
Ürəyi xainlər oldu düşmənim.
Dayı axtarmadım, arxa gəzmədim,
Arxam Vətənimdir, xalqımdır mənim.

Bu misralar gəlişigözəl deyilməyib, bir şair ömrünün Vətənlə, xalqla, mənsub olduğu millətiylə bağlı duyğularından od alıb. İlyas Tapdığın yaradıcılığında Azərbaycan torpağının, təbiətinin gözəllikləri əks olunub, Azərbaycanla, Xəzərlə, onun nadir təbiətinin nişanələri olan qədim abidələrimitzlə, qalalarımızla bağlı yüzlərlə şeirlər yazıb və indi də yazmaqdadır-.O, Gədəbəydə doğulub və sizə də məlumdur ki, Gədəbəy Azərbaycanın nadir təbiət lövhələrini, xalqımızın şanlı keçmişini özündə əks etdirən gözəllikləri ilə məşhurdur. Mənim fikrimcə, İlyas Tapdığın ən gözəl və deyərdim ki, ŞAH ŞEİRİ elə Gədəbəyə həsr olunub. Bəzən olur ki, hansı şairlərinsə Naxçıvana, Lənkərana, Qarabağa, Qubaya, ya Qazaxa həsr edilən şeirlərindən məkan adlarını dəyişəndə, o şeirə heç bir xələl gəlmir, Qubanı Qazaxla, Naxçıvanı Qarabağla əvəz et, mahiyyət dəyişmir, çünki o şeirdə təsvir edilən məkana aid xarakterik, konkret cizgilər yoxdur. Amma İ.Tapdığın «Gədəbəydəlir» şeirini oxuyandan sonra bəzi ümumi cizgilərə baxmayaraq, sənin qarşında yalnız Gədəbəy canlanır. Buyurun, həmin şeirdən bir neçə bəndi xatırladım:

Soruşdun hardanam, Şirin xaloğlu,
Ömrümün binası Gədəbəydədir.
Anamın boynuma dolanan qolu,
Yuxumun laylası Gədəbəydədir.

Daşlardan tökülən gur şəlalələr,
Çəmənə od salan yanan lalələr,
Ayaz gecələrdə düşən jalələr,
Otların sırğası Gədəbəydədir.

Gəzib dolaşanda binələrini,
Əzmə çiyələyin dənələrini,
Dərənin dərini, suyun sərini,
Dağların qocası Gədəbəydədir.

«Dəli Koroğlu»ya çəkilən zillər,
Çeçələ barmaqla vurulan güllər,
Gözəllər eşqinə gözəlləmələr,
«Sarıtel» havası Gədəbəydədir.

Cığırlar yollara calaq-calaqdır,
Çeşmələr çaylara budaq-budaqdır,
Qayalar təpədə daraq-daraqdır,
Koroğlu qalası Gədəbəydədir.

İ.Tapdığın bu şeiri sanki gözəl bir rəsm əsərini xatırladır və deyim ki, şairin bir çox şeirlərində poeziya ilə rəssamlıq duyğusu birləşir, Azərbaycan torpağının bənzərsiz gözəllikləri barədə əyani təsəvvür yaradır.

Şairlərin adı qarşısında «təbiət şairi», «gözəllik şairi», «sevgi şairi» və s. belə ifadələr işlədilir və əlbəttə, bunu şərti mənada anlamaq lazımdır. O şair ki, təbiəti duyur və bu duyğu şeirdə öz poetik əksini tapırsa,yəni bənzərsiz bədii təsvir vasitələri ilə süslənirsə, əlbəttə, o şairi elə bu mənada təbiət şairi adlandırmaq olar. İ.Tapdığın bu tipli şeirlərində təkcə təbiətin gözəllikləri vəsf olunmur, həm də təbiətin ağrısı qələmə alınır. Bir ağacın kəsilməyi, ya qocalıb görkəmini, gözəlliyini itirməsi də ağrıdır və bu ağrını İlyas Tapdıq bir çox şeirlərində içindən keçən bir ağrı kimi təsvir edir:



Dayandı boy-boya, çiyin-çiyinə,
Deyildi hər sözü, sirri yollara.
Döndü yolçuların yaşıl evinə,
Düşdü yarpaq-yarpaq ömrü yollara.

Dayanıb daş olduq əli qoynunda
Quruyan ağacın sahibi kimdir?
Çinar torpağında, palıd yurdunda
Ağacı quruyan yollar yetimdir.

Öncə dedim ki, İlyas Tapdıq ədəbiyyata saz-söz mühitindən gəlib. Onun şeirlərində bir çox obrazlar (Dağ, Qaya, Bulaq və s.) var ki, onlardan da biri SAZdır. Deyərdim ki, bu obraz təkcə simvolik məna daşımır, həm də çox canlı İlyas Tapdığın şeirlərində səslənir. Saz onun şeirlərində Kərəm naləsidir, Qərib səsidir, zərif duyğuların zərif səsidir, yaralı durnanın qərib səsidir, Kərəm yanğısıyla gileylidir. Onun şeirlərində «Göyçə gülü» çiçək-çiçək açılır.

İ.Tapdıq ənənəyə möhkəm bağlı olan və onun təəssübünü çəkən şairlərdəndi (hərçənd, onun sərbəst şeirləri də var) və bu təəssübkeşlik onda öz ifadəsini tapır ki, qələmə aldığı qoşma və gəraylılarında, heca vəznli digər şeirlərində ənənəni yaşada bilir.

Əl elədin-baxdın mənə,
Gözlərinin yaşı düşdü.
Parıldadı-elə bildim,
Üzüyünün qaşı düşdü.

Bu nə idi axşam vaxtı,
Bir çay olub qatar axdı.
Saçlarını sərpib baxdın,
Ürəyimin başı düşdü.

Öncə deyildiyi kimi, bu kiçik yazıda mən İlyas Tapdığın yaradıcılığı barədə geniş söz açmağı qarşıma məqsəd qoymamışam. Onu bir şair kimi səciyyələndirməli olsam, qısaca yalnız onu deyə bilərəm ki, poeziyamızı düşündürən hansı mövzular olubsa, İlyas Tapdıq o mövzularda öz sözünü deyə bilib. Həm də özünəməxsus şəkildə. Amma bu yazıda bir məqamı xüsusi vurğulamaq istəyirəm- o da İlyas Tapdığın gözəl bir uşaq şairi olmasıdır. Dahi Belinski deyirdi ki, «uşaq şairi olmaq yox, doğulmaq lazımdır». Son 60 ilin uşaq poeziyasını İlyas Tapdığın yaradıcılığı olmadan təsəvvür eləmək mümkün deyil. Burada görkəmli yazıçı-tənqidçi Elçinin təxminən 27 il əvvəl yazılmış və indi də aktuallığını itirməyən «Azərbaycan uşaq ədəbiyyatı haqqında» məqaləsinə müraciət etmək istəyirəm. Elçin müəllim yazırdı: «Azərbaycan uşaq ədəbiyyatının, xüsusən şeirinin istedadlı nümunələrində məhz bu cəhət, yəni sözün ən sadə, lakin emosional təsir baxımından tez sirayət edən, rahat qavranılan, yaddaqalan, təmtəraq, elitarlıq və quramaçılıqdan uzaq xəlqi çalarından istifadə etmək bacarığı özünü göstərir. M.Ə.-Sabirin, A.Səhhətin, A.Şaiqin uşaq şeirlərində formalaşan və Azərbaycan uşaq poeziyasının M.Seyidzadə, M.Rzaquluzadə, T.Elçin, X.Əlibəyli kimi görkəmli nümayəndələri tərəfindən cilalanıb inkişaf etdirilən həmin poetik xətt bu gün Məstan Əliyev, Tofiq Mahmud, İlyas Tapdıq, Zahid Xəlil kimi uşaq şairlərinin əsərlərində estetik bir leytmotiv rolunu oynayır və uşaq poeziyasının effektli mütaliə və idrak materialına çevrilməsinə münbit zəmin yaradır».

Qeyd edim ki, İlyas Tapdığın gözəl bir uşaq şairi olmasından, şeirlərində uşaq psixologiyasına bələdliyindən və bu sahədə ardıcıl fəaliyyət göstərməsindən digər müəlliflər də söz açmışlar. Onun «Meşənin mahnısı», «Çiçəklərim, güllərim» şeirlər-poemalar kitabları bir neçə nəslin yaddaşında həkk olunan poeziya örnəkləridir. Uşaqlar üçün yazmağın çətinlikləri çoxdur, məsuliyyəti ondan da böyükdür və İ.Tapdıq bu çətinlikləri və məsuliyyəti çox yaxşı duyur. O, yaxşı bilir ki, uşaqla uşağın öz dilində danışmaq lazımdır. Bu məqamda unudulmaz şairimiz Səməd Vurğunun bu sözlərini xatırladıram: «Uşaq xəyalı səyyardır. O, şıltaq bir ulduz kimi daima süzüb oynar. O, güldən-gülə, çiçəkdən-çiçəyə qonan bir kəpənəyə bənzər. Daim hərəkət uşaq təbiətinin hüsnüdür. Xəyal və romantika bu təbiətin qanadlarıdır». İlyas Tapdıq da uşaq şeirlərində məhz bu romantikaya meydan açan, uşaqları təkcə dünyanın bilmələcələri ilə tanış olmağa deyil, həm də gələcəyə qanadlandırır. Bir nümunə göstərək:

Nənənin evində
gəbə var.
Gəbənin üstündə
dəvə var.
Dəvənin belində
təpə var.
Təpənin üstündə
nəvə var.
Dəvənin yunundan
Toxunub gəbələr.
Gəbələr üstündən
Boylanır dəvələr.
Dəvələr belində
Dayanıb təpələr.
Təpələr üstündə
Oynaşır nəvələr.

Bu, xalis uşaq şeiridir. Uşağa çox sadə şəkildə bir gəbə, onun üzərində nəqş olunmuş şəkil barədə əyani təsəvvür, məlumat vern, dəqiq informasiya yaradan (həm də necə, poetik detallarla) bir şeir. Təfərrüata varmadan deyə bilərəm ki, İlyas Tapdıq əsl uşaq şairidir. Bu şeirlərin çoxunda İlyas müəllim Azərbaycan şeirinə məxsus alliterasiyalardan məharətlə istifadə edir (xüsusilə, onun yanıltmacları). Məsələn onun çox qısa bir şeirini nümunə gətirək: DAŞKƏSƏN DAĞ ŞƏHƏRİ, DAĞLARIN AĞ ŞƏHƏRİ.

Allah onun ruhunu şad eləsin!

2024